13 (1370) 3-9 aprel 2025-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## "BU SƏFƏR AZƏRBAYCAN-ALMANİYA ƏLAQƏLƏRİNƏ YENİ MÜSBƏT TƏKAN VERƏCƏK"

Bu sözləri Prezident İlham Əliyev Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə mətbuata bəyanatında səsləndirib. Dövlətimizin başçısı qeyd edib: *"İqtisadi sahədə əldə edilmiş nəticələr bizi tabii olaraq ruhlandırır. Çünki bu ilin yanvar-fevral aylarında bizim ticarət dövriyyəmiz təxminən üç dəfə artıb".*



## "BƏRPA OLUNAN ENERJİ SAHƏSİNDƏ AZƏRBAYCANIN ÇOX BÖYÜK PLANLARI VAR"

"Bərpa olunan enerji sahəsində, harada ki, Almaniya şirkətlərinin çox böyük təcrübəsi var, Azərbaycanın da çox böyük proqramı, planları var". Bu fikri Prezident İlham Əliyev Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə mətbuata bəyanatında səsləndirib. *"Biz xarici investorların sərmayəsi hesabına 2030-cu ilə qədər bərpaolunan enerji növlərinin istehsal gücünü 6 gigavata çatdırmaq fikrindəyik və bu, tam realdır. Bunun bir hissəsi Avropaya ixrac ediləcək"*, - deyə dövlətimizin başçısı vurğulayıb.

## "BU GÜN AZƏRBAYCANIN VƏ ERMƏNİSTANIN SÜLHÜN ƏLDƏ EDİLMƏSİNDƏ MÖVQELƏRİ BİR-BİRİNƏ KİFAYƏT QƏDƏR YAXINLAŞIB"

"Tarixi Zəfərimiz sülh danışıqlarına yol açmışdır və hesab edirəm ki, bu gün Azərbaycanın və Ermənistanın sülhün əldə edilməsində mövqeləri bir-birinə kifayət qədər yaxınlaşmışdır". Bu barədə Prezident İlham Əliyev Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə mətbuata bəyanatında bildirib. Almaniya Prezidentinin Azərbaycana bu səfərinin çox müsbət nəticələrinin olacağından əminliyini vurğulayan dövlətimizin başçısı deyib: *"İkitərəfli münasibətlər tarixində bu, Almaniya Prezidentinin Azərbaycana birinci rəsmi səfəridir və əminəm ki, səfərin yekunları ölkələrimizi bir-birinə daha yaxın edəcəkdir".*

## PREZİDENT İLHAM ƏLİYEV ALMANİYALI HƏMKARINI AZƏRBAYCAN-ERMƏNİSTAN SÜLH PROSESİ BARƏDƏ MƏLUMATLANDIRIB

Prezident İlham Əliyev almaniyalı həmkarı Frank-Valter Ştaynmayeri Azərbaycan-Ermənistan sülh prosesi barədə ətraflı məlumatlandırıb.
Dövlətimizin başçısı bu barədə jurnalistlərin suallarına cavabında bildirib.
*"Bu gün söhbət əsnasında mən cənab Prezidenti Azərbaycan-Ermənistan sülh prosesi ilə bağlı kifayət qədər məlumatlandırdım. Bildirdim ki, İkinci Qarabağ müharibəsi başa çatandan sonra məhz Azərbaycan və şəxsən mən sülh danışıqlarının başlanmasının təşəbbüskarı olmuşam. O vaxt nə Ermənistan, nə də ki, o vaxt hələ fəaliyyət göstərən ATƏT-in Minsk qrupu belə bir təklif irəli sürməmişdi. Bu təklifi Azərbaycan tərəfi vermişdir. Bu özlüyündə onu göstərir ki, biz sülh müqaviləsinin bağlanmasında nə qədər maraqlıyıq"*, - deyə Azərbaycan Prezidenti vurğulayıb və bildirib ki, 2024-cü ilin yanvarına qədər Ermənistan təkidlə sülh müqaviləsinə salmaq istədiyi dırnaqarası "Dağlıq Qarabağ respublikası" yoxdur, bu, ancaq Ermənistanın xülyalarında mövcud olub. Azərbaycanın Qarabağ bölgəsi mövcuddur.

## "ERMƏNİSTAN İLƏ AZƏRBAYCAN ARASINDA SÜLH PROSESİNİN ÇOX BÖYÜK ƏHƏMİYYƏTİ VAR"

Bu barədə Almaniya Prezidenti Frank-Valter Ştaynmayer Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında bildirib. Son bir il ərzində bu istiqamətdə atılan addımlar və əldə olunan irəliləyişlər münasibətilə təbriklərini ifadə edən Almaniya Prezidenti deyib: *"Razılaşmanın əldə olunması ilə bağlı mühüm an yetişib. Ümid edirəm ki, bu andan istifadə olunaraq sülh müqaviləsi imzalanacaq və sizin regionda əsl davamlı sülh yaranacaq. Mən buna çox böyük ümidlər bəsləyirəm"*.
Prezident Frank-Valter Ştaynmayer Almaniyanın bu prosesdə lazımi dəstəyi verməyə hazır olduğunu əlavə edib.

## AZƏRBAYCAN PREZİDENTİ ERMƏNİSTAN İLƏ SÜLH MÜQAVİLƏSİNİN İMZALANMASI ÜÇÜN ŞƏRTLƏRİ AÇIQLAYIB

"Bu günə qədər sülh müqaviləsinin mətni tam razılaşdırılıb, 17 paraqrafdan ibarətdir. Azərbaycan burada hər hansı bir əlavə şərt irəli sürmür. Bizim şərtlərimiz Ermənistan üçün bəllidir, yenilik deyil. Bu şərtləri biz uzun müddət ərzində irəli sürürük. Ancaq Ermənistandan bu günə qədər hər hansı bir ciddi cavab almamışıq. Nədən ibarətdir bu? Birinci, ATƏT-in Minsk qrupu ləğv edilməlidir".
Bu fikirləri Prezident İlham Əliyev Almaniya Prezidenti Frank-Valter Ştaynmayer ilə mətbuata bəyanatında söyləyib.
Dövlətimizin başçısı əlavə edib: *"İkinci məsələ Ermənistanın konstitusiyası ilə bağlıdır. Ermənistan konstitusiyasında Ermənistan müstəqillik aktına istinad var. O konstitusiyanın tərkib hissəsidir. Orada isə Azərbaycanın hüquqi, tarixi ərazisinin Ermənistanla birləşməsi haqqında müddəa var və bu, bizə qarşı açıq ərazi iddiası sayılır. Ona görə Ermənistan konstitusiyasından bu bəndin çıxarılması bizim legitim tələbimizdir. Bu iki şərt təmin olunandan sonra sülh müqaviləsinin imzalanması üçün heç bir maneə olmayacaq. Necə deyərlər, top Ermənistanın tərəfindədir. Əgər Ermənistan doğrudan da sülh müqaviləsini imzalamaq istəyirsə, Azərbaycanın bu iki legitim şərtini qəbul etməlidir".*

## "ORTA DƏHLİZ ALMANİYA İQTİSADİYYATI ÜÇÜN DƏ MARAQLI PERSPEKTİVDİR"

"Çox şadam ki, Azərbaycan dünyanın əsas ticarət yollarının birləşdiyi məkana çevrilir".
Bu barədə Almaniya Prezidenti Frank-Valter Ştaynmayer Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında bildirib.
Almaniya Prezidenti qeyd edib: *"Biz hər ikimiz təkcə Mərkəzi Asiya ilə deyil, həmçinin Uzaq Şərq, Cənub-Qərbi Asiya, eləcə də Çin ilə iqtisadi və ticarət əlaqələrində maraqlıyıq. Eyni zamanda, hazırda mövcud nəqliyyat marşrutlarının nə dərəcədə məhdud olduğunu və onların hansı imkanlarla işlədiyini də yaxşı bilirik. Bu baxımdan Orta Dəhliz Almaniya iqtisadiyyatı üçün də maraqlı perspektivdir. Cənubi Qafqaz son dövrlərdə olduğu kimi, siyasi baxımdan daha sabit inkişaf etdikcə, bu perspektiv daha da cəlbedici olacaqdır".*

## İRAN AZƏRBAYCAN İLƏ ƏLAQƏLƏRİN İNKİŞAFINA MÜHÜM ƏHƏMİYYƏT VERİR

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 1-də İran İslam Respublikası Prezidentinin siyasi məsələlər üzrə müşaviri Mehdi Sənayini qəbul edib.
Qəbula görə minnətdarlığını bildirən Mehdi Sənayi İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkianın salamlarını dövlətimizin başçısına çatdırıb.
Ölkəmizə daha əvvəllər də səfər etdiyini xatırlayan qonaq Azərbaycanın davamlı inkişafının şahidi olduğunu deyib.
Mehdi Sənayi İranın qonşu dövlətlərlə, xüsusilə tarixi, dini, mədəni bağlılığı olan Azərbaycan ilə əlaqələrin inkişafına mühüm əhəmiyyət verdiyini vurğuladı, hazırda ölkələrimiz arasında münasibətlərin bütün sahələrdə inkişafından məmnunluğunu bildirib.
Dövlətimizin başçısı da öz növbəsində Azərbaycanın və İranın ortaq dəyərləri bölüşdüyünü qeyd edərək, son dövrlərdə ikitərəfli qarşılıqlı səfərlərin dinamikasını müsbət qiymətləndirib.
Prezident İlham Əliyev Mehdi Sənayinin Azərbaycana səfərinin ikitərəfli gündəliklə bağlı məsələlərin müzakirəsi üçün yaxşı imkan yaradacağına ümidvarlığını ifadə edib.
Görüşdə ölkələrimiz arasında nəqliyyat, xüsusilə Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı, iqtisadi-ticari, enerji və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair müzakirələr aparılıb, hökumətlərarası komissiyanın fəaliyyətinə toxunulub. Söhbət zamanı Ağbənd istiqamətində Araz çayı üzərində körpünün tikintisi prosesi ilə bağlı fikir mübadiləsi aparılıb.

## Auditorlar Palatasının nümayəndə heyəti beynəlxalq konfransda iştirak edib

Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzovun rəhbərlik etdiyi nümayəndə heyəti Dünya Bankının Maliyyə və Dayanıqlı İnkişaf Hesabatlılığı üzrə İslahatlar Mərkəzinin (CFRR) təşkilatçılığı və Avstriya Maliyyə Nazirliyinin ev sahibliyi ilə Vyanada keçirilmiş "Maliyyə və Dayanıqlı İnkişaf Hesabatlılığı İslahatları: Yaşıl və Rəqəmsal Gündəliklər üzrə Naviqasiya" mövzusunda nazirlər konfransında, "Mühasibat uçotu və auditdə islahatlar" forumunda və "Dayanıqlı inkişafa dair hesabatlılıq" üzrə seminarda iştirak edib.




Auditorlar Palatasından bildirilib ki, tədbirlərin təşkil edilməsində məqsəd korporativ maliyyə hesabatlarında, həmçinin davamlı inkişafa dair hesabatlarda və süni intellektin tətbiqində yeni dövrün tələblərinə və çağırışlarına ən yaxşı şəkildə necə cavab veriləcəyini müzakirə etmək, regional miqyasda, eləcə də milli səviyyədə atılacaq növbəti addımları razılaşdırmaq üçün 11 benefisiar ölkədən – Azərbaycan, Albaniya, Bosniya və Herseqovina, Ermənistan, Gürcüstan, Kosova, Moldova, Monteneqro, Serbiya, Şimali Makedoniya və Ukraynadan olan nümayəndələri bir araya gətirməkdən ibarət olub.
Ölkəmizin bir sıra dövlət və özəl sektorunun nümayəndələrinin iştirak etdiyi tədbirdə Avropa İttifaqının korporativ sektor üçün yaşıl və rəqəmsal siyasəti; dövlətə məxsus müəssisələrin iqlim dəyişikliyi ilə bağlı fəaliyyəti; maliyyə və dayanıqlılıq hesabatına dair islahatların yaratdığı imkanlar; dövlət və korporativ sektor üzrə dayanıqlılıq hesabatı; süni intellekt – mühasibatlıq və audit üçün risklər və imkanlar; dayanıqlı inkişafa dair hesabatlılığın rəqəmsal platformalar üzərindən əlçatanlığının təmin edilməsi və digər mövzularda müzakirələr və fikir mübadiləsi aparılıb.
Auditorlar Palatasının nümayəndələri tərəfindən Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) və Auditorlar Palatasının birgə əməkdaşlığı ilə COP29 çərçivəsində nəşr olunmuş "İstixana qazlarının uçotunun əsasları (Dayanıqlı inkişafla bağlı açıqlamalara dair MHBS standartları əsasında)" adlı təlimat konfrans iştirakçılarına təqdim edilib və maraqla qarşılanıb.
Tədbir müddətində göstərilən problemlər üzrə müvafiq materiallar əldə edilib və onların ölkəmizdə tətbiqi istiqamətində müvafiq işlərin həyata keçirilməsi Auditorlar Palatası tərəfindən nəzərdə tutulur.
Tədbirlər çərçivəsində mühasiblərin və auditorların beynəlxalq peşəkar tənzimləyicisi olan və Auditorlar Palatasının 2008-ci ildən tamhüquqlu üzvü olduğu Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) icraçı direktoru Li Uaytın rəsmi dəvətinə əsasən Auditorlar Palatasının sədri V.Novruzov işgüzar görüşdə iştirak edib.

# “Caspian Energy Club”ın təşəbbüsü ilə qanunvericilikdə mühüm dəyişikliklər olub




“Caspian Energy Club” Azərbaycan Respublikasının Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın bütün işçi qrup və altqruplarının fəaliyyətində aktiv iştirak etməyə davam edir.

Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın “Vergi və hesabatlılıq” işçi qrupunun iclaslarında sahibkarlıq subyektləri ilə bir sıra qanunvericilik aktlarına, qərar və qaydalara dəyişikliklər edilməsi məqsədilə müzakirələrə başlanılıb. Aparılan müzakirələr nəticəsində Nazirlər Kabinetinin 24 fevral 2025-ci il tarixli qərarı ilə “Vergi ödəyicisinə verilmiş elektron qaimə-faktura üzrə alınmış malların (iş və xidmətlərin) dəyəri ödənilərkən ƏDV-nin ödənilməsi, ƏDV-nin depozit hesabında uçotun aparılması, ƏDV-nin hərəkəti, bu hesab üzrə aparılan əməliyyatlardan ƏDV-nin əvəzləşdirilməsi və dövlət büdcəsinə köçürülməsi Qaydaları”nda dəyişikliklər edilib.

"Caspian Energy Club"ın sədri və qrupun baş icraçı direktoru Telman Əliyev tərəfindən verilən məlumata əsasən dəyişikliklər, xüsusilə vergi ödəyicilərinin əməliyyatlarını daha sürətli və rahat həyata keçirməsinə imkan yaradacaq.

Yeni təkliflərdən biri, ƏDV üzrə öhdəliklərin yerinə yetirilməsinə dair məlumatların xəzinədarlığa təqdim edilməsi vaxtının dəyişdirilməsi olub. Müvafiq qaydalarda edilmiş digər mühüm dəyişiklik vergi ödəyicisi tərəfindən ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödənilməsi üçün Dövlət Vergi Xidməti tərəfindən müvafiq sənədlərin həmin gün Dövlət Xəzinədarlıq Agentliyinə təqdim edilməsi vaxtının uzadılması ilə bağlıdır. Vergi ödəyiciləri ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödənişi, iş günü saat 14.15-dək həyata keçirdikdə, həmin vəsaitin dövlət büdcəsinə ödənilməsi üçün Dövlət Vergi Xidməti tərəfindən müvafiq sənədlərin həmin gün Dövlət Xəzinədarlıq Agentliyinə təqdim edilməsi vaxtı 14:30-dək müəyyənləşdirilib. Dəyişiklikdən əvvəl yalnız 11:30-dək olan ödənişlərin həmin gün DXA-ya təqdim olunması nəzərdə tutulurdu.

Dəyişiklərə əsasən, ƏDV sub-uçot hesabından dövlət büdcəsinə ödəniş müddəti artacaq, Dövlət Xəzinədarlıq Agentliyinə təqdim olunması nəzərdə tutulmuş sənədlərin ötürülməsi prosesi sürətlənəcək və ödəmələrin gün ərzində aidiyyəti üzrə yerli xəzinədarlıq orqanlarına köçürülməsi təmin ediləcək. Sahibkarlıq subyektlərinin və biznesin maraqlarına xidmət edən bu dəyişiklik nəticəsində vergi ödəyicilərinin ƏDV üzrə öhdəlikləri daha tez yerinə yetiriləcək və onlara əlavə faizlərin hesablanması kimi hallar aradan qalxacaq.

# Meyvə bağlarına aqrar sığorta ödənişləri 18 dəfə artıb

Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmindən faydalanan fermerlərin sayı və onlara ödənişlər kəskin artıb.

Aqrar Sığorta Fondundan bildirilib ki, sığorta ödənişlərinin artımı özünü xüsusilə meyvə bağlarında göstərir. Belə ki, 2024-cü ildə meyvə bağlarında baş verən müxtəlif hadisələr nəticəsində dəyən zərərlər üzrə bağını sığorta etmiş fermerlərə ümumilikdə 721 min manat ödəniş edilib. Bu, əvvəlki ilin göstəricisinə nisbətən 18 dəfə artıqdır. Xatırladaq ki, 2023-cü ildə meyvə bağları üzrə ümumilikdə 39 min manat sığorta ödənişi edilmişdi.

2024-cü ildə fermerlərin aqrar sığorta barədə məlumatının daha da yüksəlməsi, sığortalanan meyvə bağlarının sahəsinin genişlənməsi və təbiət hadisələrinin tezliyinin artması nəticəsində sığorta ödənişlərinin kəskin artımına səbəb olub.

Meyvə bağları üzrə aqrar sığorta ödənişləri ölkənin bütün iqtisadi regionlarında həyata keçirilib. Ən çox sığorta ödənişləri üzüm, gilas, alma, badam, ərik, alça, armud, şaftalı, qoz, limon, naringi, nektarin, xurma və sair məhsullar üzrə olub.

Sığorta ödənişinə səbəb olan əsas hadisələr isə fırtına-qasırğa, dolu, şaxtavurma halları olub. Belə ki, 2024-cü ildə meyvə bağlarına edilmiş sığorta ödənişlərindən 130 min manatı şaxtavurma hadisəsi üzrə həyata keçirilib. Hazırda müxtəlif meyvə bağları və əkinlər üzrə sığortalanma prosesi davam edir.

# Gömrük orqanlarının xətti ilə büdcə daxilolmaları 6% artıb

Bu ilin yanvar-fevral aylarında Azərbaycanda gömrük orqanlarının xətti ilə dövlət büdcəsinə daxilolmalar 1 milyard 17,766 milyon manat təşkil edib ki, bu da illik müqayisədə 6.1% çoxdur.

Bu barədə Dövlət Gömrük Komitəsindən bildirilib.



Son 1 ildə gömrük rüsumları üzrə daxilolmalar 289,71 milyon manat, əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar 682,187 milyon manat, aksizlər üzrə daxilolmalar 38,793 milyon manat, yol vergisi üzrə daxilolmalar isə 7,078 milyon manat olub.

# Dövlət rüsumu ilə bağlı qərar təsdiqləndi



Nazirlər Kabineti “Dövlət rüsumu haqqında” Qanununun 4.3-3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, Maliyyə Nazirliyinin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması məqsədilə həmin Nazirliyin xəzinə hesabına köçürülən vəsaitdən istifadə Qaydası”nı təsdiqləyib.

Bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb. Qərara əsasən, büdcədənkənar vəsait dövlətin mülkiyyəti hesab olunur, Nazirliyin sərəncamındadır, onun sərəncamçısı dəyişdirilə bilməz. Büdcədənkənar vəsaitin təyinatı üzrə istifadə edilməsi məqsədilə Nazirlik yanında Dövlət Xəzinədarlıq Agentliyində Nazirlik üçün xüsusi xəzinə hesabı açılacaq.

Bundan başqa, büdcədənkənar vəsaitin Nazirliyin Aparatı və strukturuna daxil olan qurumları arasında bölgüsü Nazirliyin müvafiq əmri ilə rəsmiləşdiriləcək.

Həmçinin büdcədənkənar vəsait işçilərin sosial müdafiəsinin gücləndirilməsi və maddi təminatının yaxşılaşdırılması məqsədilə aşağıdakı istiqamətlər üzrə xərclənəcək:

- *işçilərin kollektiv və fərdi qaydada mükafatlandırılması;*
- *işçilərin aylıq vəzifə maaşlarına əlavələrin verilməsi;*
- *işçilərə maddi yardımın göstərilməsi.*

# «Kaspian İnterneşnl Brouking» MMC-nin 31 dekabr 2024-cü il tarixinə BALANS HESABATI

| AKTİVLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I .UZUNMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Torpaq, tikili və avadanlıqlar** | 74276,50 | 138 293,00 |
| **Torpaq, tikili və avadanlıqlarla bağlı məsrəflərin kapitallaşdırılması** | | |
| **Daşınmaz əmlaka investisiyalar** | | |
| **Qeyri-maddi aktivlər** | 12215,56 | 10 994,00 |
| **Təxirə salınmış vergi aktivləri** | | |
| **Uzunmüddətli debitor borcları** | | |
| **Uzunmüddətli maliyyə aktivləri:** | 0,00 | 0,00 |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **İştrak payı metodu ilə uçota alınmış investisiyalar** | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair aktivlər** | | |
| ***Cəmi uzunmüddətli aktivlər*** | **86492,06** | **149287,00** |
| **II . QISAMÜDDƏTLİ AKTİVLƏR** | | |
| **Ehtiyatlar** | | |
| **Debitor borcları:** | **494134,89** | **709259,66** |
| birbaşa sığorta üzrə | 189036,85 | 166 576,62 |
| **təkrarsığorta əməliyyatları üzrə :** | **305098,04** | **542683,04** |
| - təkrarsığortaçı üzrə | 305098,04 | 542 683,04 |
| - təkrarsığortalı üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| büdcə üzrə | | |
| iddia tələbləri üzrə | | |
| işçi heyəti üzrə | | |
| sığortalılara verilən borclar üzrə | | |
| sair debitorlar | | |
| **Pul vəsaitləri və onların ekvivalentləri:** | **1913677,55** | **1700918,01** |
| kassa | 0,00 | 0,00 |
| hesablaşma hesabı | 566567,18 | 277 658,99 |
| valyuta hesabı | 1347110,37 | 1423 259,02 |
| depozit hesablar | | |
| sair pul vəsaitləri | | |
| **Qısamüddətli maliyyə aktivləri:** | **0,00** | **0,00** |
| dövlət qiymətli kağızları | | |
| qeyri-dövlət qiymətli kağızları | | |
| sair maliyyə aktivləri | | |
| **Sığorta ehtiyatlarında təkrarsığortaçıların payı:** | **0,00** | **0,00** |
| həyat sığortası sahəsi üzrə | | |
| qeyri-həyat sığortası sahəsi üzrə | | |
| **Sair qısamüddətli aktivlər:** | **15825,60** | **200195,00** |
| gələcək hesabat dövrlərinin xərcləri | 7870,60 | 10 174,00 |
| verilmiş avanslar | 7955,00 | 190 021,00 |
| təhtəl hesablar | | |
| **Sair aktivlər** | | |
| ***Cəmi qısamüddətli aktivlər*** | **2423638,04** | **2610372,67** |
| **CƏMİ AKTİVLƏR** | **2510130,10** | **2759659,67** |

**REANDA**

Audit & Assurance | Tax | Advisor
ASK Plaza, 2th floor, Tbilisi Avenue
35,Baku, Azerbaijan
Tel:(+99412) 480 14 40
info@reanda-azerbaijan.com
www.reanda-azerbaijan.com

**Müstəqil Auditorun Rəyi**

Kaspian İnterneşnl Broukinq MMC-nin Təsisçiləri və Rəhbərliyinə:

***Şərti rəy***

Biz Kaspian İnterneşnl Broukinq MMC (Təşkilat) 31 dekabr 2024-cü il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixə bitən il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühim mühasibat uçotu prinsipləri və digər izahedici məlumatların icmalından ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları 31 dekabr 2024-cü il tarixinə Təşkilatın maliyyə vəziyyətini və həmin tarixdə bitən il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (“MHBS”) uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından - Şərti rəy üçün əsasda qeyd olunan məsələdən başqa - düzgün əks etdirir.

***Şərti rəy üçün əsas***

Təşkilat, 2023-cü il və daha əvvəlki illər üzrə istifadə olunan ofisi 16 saylı MHBS-nin tələbi üzrə hesabatda istifadə hüquqlu aktivlər kimi əks etdirilməyib, adi icarə xərci kimi kimi əks etdirildiyi müəyyənləşdirilmidir.

**Digər məsələ**

Təşkilat-ın 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatları başqa auditor tərəfindən yoxlanılmışdır və hesabata dair müsbət rəy bildirilmişdir.

Təşkilatın 31 dekabr 2023-cü il tarixində başa çatmış il üzrə maliyyə hesabatlarının auditini aparmamışıq, müvafiq olaraq həmin maliyyə hesabatlarına dair rəy və ya hər hansı digər əminlik formasını təqdim etmirik.

***Maliyyə hesabatları üçün rəhbərliyin və Təşkilatın idarə edilməsinə cavabdeh olan şəxslərin məsuliyyəti***

Rəhbərlik maliyyə hesabatlarının Maliyyə Hesabatları Beynəlxalq Standartlarına uyğun hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması üçün rəhbərliyin lazım bildiyi daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Təşkilatın ləğv edilməsi və ya əməliyyatların dayandırılması niyyəti olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Təşkilatın daim fəaliyyətdə olan Təşkilat kimi fəaliyyətinə davam etməsi qabiliyyətinin qiymətləndirilməsinə, onunla bağlı məsələlərin (belə məsələlər varsa) açıqlanmasına və mühasibat uçotunun daim fəaliyyətdə olan Təşkilat konsepsiyasının istifadə edilməsinə görə məsuliyyət daşıyır.

Təşkilatın idarə edilməsinə cavabdeh olan şəxslər Təşkilatın maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyır.

***Maliyyə hesabatlarının auditi üzrə auditorun məsuliyyəti***

Bizim məqsədimiz ümumiyyətlə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olmamasına kifayət qədər əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik əminliyin yüksək dərəcəsini ifadə edir, lakin BAS-a uyğun olaraq aparılmış audit nəticəsində mövcud olan bütün təhriflərin üzə çıxarılmasına zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində əmələ gələ bilər və fərdi və ya məcmu halda götürməklə hazırkı maliyyə hesabatlarının əsasında istifadəçilərin qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı halda əhəmiyyətli hesab olunur.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi olaraq biz audit zamanı peşəkar mühakimə və peşəkar spektisizm tətbiq edirik. Biz həmçinin:

- Maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli təhriflərin olması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını layihələşdirir və həyata keçirir, eləcə də rəyimiz üçün əsas yaratmaq məqsədilə kifayət və münasib olan audit sübutunu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riski səhvlər nəticəsində yaranmış əhəmiyyətli təhriflərin aşkar edilməməsi riskindən yüksəkdir, çünki fırıldaqçılığa gizli sözləşmə, saxtakarlıq, bilərəkdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitdə münasib olan audit prosedurlarının işlənib hazırlanması məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Təşkilatın daxili nəzarət sisteminin səmərəliliyi haqqında rəy bildirmək məqsədini güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş uçot prinsiplərinin münasibliyini, uçot təxminlərinin və əlaqəli açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərfindən mühasibat uçotunun daim fəaliyyətdə olan müəssisə konsepsiyasının tətbiqinin münasibliyi və əldə edilmiş audit sübutlarına əsaslanaraq Təşkilatın daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməsi ilə bağlı əhəmiyyətli şübhə doğuran hadisə və ya şəraitlərlə əlaqədar mühüm qeyri-müəyyənliyin olub-olmaması haqqında nəticə çıxarırıq. Mühüm qeyri-müəyyənliyin mövcud olduğu qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda fərdi maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqəti yönəltməliyik və ya, əgər bu cür açıqlamalar qeyri-münasib olarsa, rəyimizə düzəliş etməliyik. Lakin gələcək hadisə və ya şəraitlər Təşkilatın daim fəaliyyətdə olan müəssisə kimi fəaliyyətinə davam etməməsinə gətirib çıxara bilər.
- Məlumatların açıqlanması da daxil olmaqla maliyyə hesabatlarının ümumi təqdimatı, strukturu və məzmunu, eləcə də maliyyə hesabatlarının müvafiq əməliyyat və hadisələri düzgün təqdim edib-etmədiyini qiymətləndiririk.

***Fəaliyyətin fasiləsizliyinə dair əhəmiyyətli qeyri-müəyyənlik***

Biz diqqəti Təşkilatın maliyyə hesabatlarına dair izahedici qeydlərində olan fəaliyyətinin davam etdirilməsinə dair qeyri-müəyyənlik faktorlarına yönəltmək istərdik. İzahedici qeydlərdə hazırki şəraitdə Təşkilat öz fəaliyyətinin fasiləsizliyini təmin etmək sahəsində əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması göstərilmişdir. Bu şəraitlə əlaqədar biz öz mülahizələrimizdə dəyişikliklər etməmişik.

Biz digər məsələlərlə yanaşı, auditin planlaşırılmış əhatə dairəsi, vaxtı və əhəmiyyətli audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə hər hansı əhəmiyyətli çatışmazlıqları tərəfimizdən müəyyən olunduğu halda Təşkilatın idarə edilməsinə cavabdeh olan şəxslərin nəzərinə çatdırmalıyıq.

19 mart 2025-ci il

Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti REANDA AZƏRBAYCAN Limited Liability Company Azerbaijan Republic

Audit & Assurance | Tax | Advisor
Member of the Reanda Iinternational Network Limited

| KAPİTAL VƏ ÖHDƏLİKLƏR | İlin əvvəlinə | Hesabat dövrünün sonuna |
|---|---|---|
| **I. KAPİTAL** | | |
| **Ödənilmiş nominal (nizamnamə) kapitalı** | 17000,00 | 17 000,00 |
| **Emissiya gəliri** | | |
| **Geri alınmış kapital (səhmlər)** | | |
| **Kapital ehtiyatları:** | **0,00** | **0,00** |
| yenidən qiymətləndirilmə üzrə ehtiyat | | |
| digər kapital ehtiyatları | | |
| **Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)** | **240266,11** | **2060613,11** |
| Hesabat dövründə xalis mənfəət (zərər) | 1776416,63 | 1820 347,00 |
| Mühasibat uçotu siyasətində dəyişikliklərlə bağlı mənfəət (zərər) üzrə düzəlişlər | | |
| Keçmiş illər üzrə bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | 224849,48 | 240 266,11 |
| Elan edilmiş dividendlər | -1761000,00 | |
| ***Cəmi kapital*** | **257266,11** | **2077613,11** |
| **II. UZUNMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Sığorta ehtiyatları:** | **0,00** | **0,00** |
| Həyat sığortası sahəsi üzrə: | | |
| Qeyri-həyat sığortası sahəsi üzrə: | | |
| **Qarşısıalınma tədbirləri fondu** | | |
| **Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər** | | |
| **Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Təxirəsalınmış vergi öhdəlikləri** | | |
| **Kreditor borcları:** | **101095,22** | **57902,39** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | | |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 101095,22 | 57 902,39 |
| **Sair uzunmüddətli öhdəliklər:** | **0,00** | **0,00** |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təkrarsığorta əməliyyatları üzrə öhdəliklər:** | **334381,40** | **559053,86** |
| təkrarsığortaçı üzrə | 334381,40 | 559 053,86 |
| təkrarsığortalı üzrə | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi uzunmüddətli öhdəliklər*** | **435476,62** | **616956,25** |
| **III. QISAMÜDDƏTLİ ÖHDƏLİKLƏR** | | |
| **Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər** | 0,00 | |
| **Qısamüddətli qiymətləndirilmiş öhdəliklər** | | |
| **Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər** | | |
| **Kreditor borcları:** | **1817387,37** | **65090,31** |
| əməyin ödənilməsi üzrə | | |
| büdcə üzrə | 178387,37 | 65 090,31 |
| sosial sığorta və təminat üzrə | | |
| digər məcburi ödənişlər üzrə | | |
| asılı təşkilatlar üzrə | | |
| sair kreditorlar | 1639000,00 | |
| **Sair qısamüddətli öhdəliklər:** | **0,00** | **0,00** |
| gələcək hesabat dövrünün gəlirləri | | |
| alınmış avanslar | | |
| **Təsisçi və ya səhmdarlarla hesablaşmalar** | | |
| **Sair öhdəliklər** | | |
| ***Cəmi qısamüddətli öhdəliklər*** | **1817387,37** | **65090,31** |
| ***CƏMİ ÖHDƏLİKLƏR*** | **2252863,99** | **682046,56** |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **2510130,10** | **2759659,67** |

**MƏNFƏƏT və ZƏRƏRİ HAQQINDA HESABAT**

| | *manatla* |
|---|---|
| **Gəlirlər** | **Məbləğ** |
| **Əsas əməliyyat gəliri:** | |
| birbaşa sığorta üzrə sığorta haqları | |
| təkrarsığorta üzrə təkrarsığorta haqları | |
| sığorta ödənişlərində təkrarsığortaçıların payı üzrə | |
| təkrarsığortaya verilmiş müqavilələr üzrə komissyon muzdlar üzrə | |
| **Xalis sığorta ehtiyatlarının dəyişməsi (müsbət və ya mənfi)** | |
| **İnvestisiya gəlirləri üzrə** | |
| **Subroqasiya gəlirləri** | |
| **Sair gəlirlər** | 2790 504,00 |
| **CƏMİ GƏLİRLƏR** | **2790 504,00** |
| **Xərclər** | |
| **Əsas əməliyyat xərcləri:** | |
| sığorta ödənişləri və sığorta məbləğləri üzrə | |
| qaytarılan sığorta haqları üzrə | |
| tənzimləmə xərcləri | |
| təkrarsığortaya verilmiş sığorta haqları üzrə | |
| qarşısıalınma tədbirləri fonduna ayırmalar üzrə | |
| sığorta fəaliyyəti üzrə sair xərclər | |
| **İşlərin aparılması xərcləri** | 479 501,00 |
| **Sair xərclər** | 1 529,00 |
| **CƏMİ XƏRCLƏR** | 481 030,00 |
| **Maliyyə mənfəəti (zərəri)** | 2309 474,00 |
